# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı”nın təsdiq edilməsi haqqında**

“İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərar 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 20 avqust 2021-ci il

№ 234

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

## Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin

## SİYAHISI

| | |
|---|---|
| Akademik Mirməmməd Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanası | böyrəklər |
| Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı | qaraciyər, mədəaltı vəzi və onun seqmentləri, böyrəklər, gözün buynuz qişası |
| Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Hərbi Hospitalı | qaraciyər, böyrəklər, mədəaltı vəzi, nazik bağırsağın bir hissəsi |
| Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | gözün buynuz qişası |
| Mərkəzi Neftçilər Xəstəxanası | qaraciyər, böyrəklər, mədəaltı vəzi və onun seqmentləri, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası |
| “Mərkəzi Klinika” MMC | böyrəklər, qaraciyər, ürək, ürək-ağciyər kompleksi, mədəaltı vəzi və seqmentləri, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası, sümük iliyi |
| Respublika Müalicəvi Diaqnostika Mərkəzi | ürək, ağciyər (ürək-ağciyər kompleksi), qaraciyər, böyrəklər, mədəaltı vəzi və seqmentləri, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası, sümük iliyi |
| Milli Hematologiya və Transfuziologiya Mərkəzi | sümük iliyi |
| Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikası | qaraciyər, böyrəklər |

| | |
|---|---|
| “Gəncə Müalicə Diaqnostika Mərkəzi” MMC | böyrəklər, qaraciyər, ürək, ürək-ağciyər kompleksi, mədəaltı vəzi və seqmentləri, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası, sümük iliyi |
| “Dünya Göz Azərbaycan” MMC | gözün buynuz qişası |
| Bakı Sağlamlıq Mərkəzi | qaraciyər, ağciyər, böyrəklər |
| Baku Medical Plaza | ağciyər |